AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASI NƏQLİYYAT, RABİTƏ VƏ YÜKSƏK TEXNOLOGİYALAR NAZİRLİYİNİN KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 11.07.2018 |
| Qeydiyyat nömrəsi | 002 |
| Adı | Normativ hüquqi aktlarda dəyişikliklər edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 21.07.2018 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 180.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201807110002 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 20.07.2018 |

“Azərbaycan Respublikasında nəqliyyat, rabitə və yüksək texnologiyalar sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanının 11.6-cı bəndinin icrası məqsədilə, həmin Fərman ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə”nin 5.10-cu bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Aşağıdakı qərarlarda müvafiq dəyişikliklər edilsin:

1.1. “Dövlət Avtomobil Nəqliyyatı Xidmətinin nəzarət funksiyalarını yerinə yetirən müfəttişlərinin xüsusi geyim formasının, fərqləndirmə nişanlarının təsviri və onların daşınması Qaydası”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinin 2 dekabr 2011-ci il tarixli 01/Q nömrəli Qərarı üzrə:

1.1.1. 1-ci hissədən “Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 10 iyun tarixli 880 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 14.10-cu bəndinə uyğun olaraq” sözləri çıxarılsın;

1.1.2. həmin Qərarla təsdiqlənmiş qaydanın 1.1-ci, 3.1-ci və 3.2-ci bəndlərində “Nəqliyyat” sözündən sonra “, Rabitə və Yüksək Texnologiyalar” sözləri əlavə edilsin;

1.2. Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyinin 8 oktyabr 2013-cü il tarixli 08/Q nömrəli qərarı ilə təsdiq edilmiş “Avtomobillərin karxana avtomobillərinə aid edilməsinə dair tələblər”in 1.2-ci bəndində “Nəqliyyat” sözündən sonra “, Rabitə və Yüksək Texnologiyalar” sözləri əlavə edilsin;

1.3. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2009-cu il 3 ayprel tarixli 64 nömrəli əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində GSM standartında fəaliyyət göstərən mobil telekommunikasiya operatorları arasında bağlanacaq arabağlantı müqavilələrinin əsas şərtlərinin müəyyən edilməsi Qaydası” üzrə:

1.3.1. 5.2-ci bənddə “Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə (bundan sonra - RİTN)” sözləri “Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinə (bundan sonra - NRYTN)” sözləri ilə əvəz edilsin;

1.3.2. 5.2-ci bənddə (hər üç halda), 5.3-cü və 6.3-cü bənddə (hər iki halda) “RİTN” sözləri “NRYTN” sözləri ilə əvəz edilsin;

1.4. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 3 sentyabr tarixli 01 nömrəli Qərarı ilə təsdiq edilmiş “Nömrə resurslarının ayrılması və istifadəsi Qaydaları”nın 1.3-cü bəndində “Rabitə və Yüksək Texnologiyalar” sözlərinin əvvəlinə “Nəqliyyat,” sözü əlavə edilsin;

1.5. “Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2012-ci il 28 dekabr tarixli 03 nömrəli Qərarı üzrə:

1.5.1. Qərarın adında və 1-ci hissədə “Rabitə və Yüksək Texnologiyalar” sözlərinin əvvəlinə “Nəqliyyat,” sözü əlavə edilsin;

1.5.2. 1.1-ci bənddə “xüsusi razılıq (lisenziya)” sözləri “lisenziya” sözləri ilə əvəz edilsin;

1.6. həmin Qərarla təsdiq edilmiş “Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi üçün

müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament" üzrə:

1.6.1. reqlamentin adında, 1.1-ci, 1.2-ci və 1.8-ci bəndlərində, 2.2.1-ci yarımbənddə (üçüncü halda) və 3.3.4-cü yarımbənddə (hər üç halda), həmin inzibati reqlamentə 1 və 2 nömrəli əlavələrin başlıqlarında ismin müvafiq hallarında "xüsusi razılıq (lisenziya)" sözləri "lisenziya" sözləri ilə əvəz edilsin;

1.6.2. 1.4-cü bənddə, 2.2.1-ci yarımbəndinin "Xüsusi razılıq (lisenziya) verilməsinə görə dövlət rüsumunun ödənilməsi üçün bank rekvizitləri" hissəsində, 3.4-cü bənddə, 3.5.2-ci yarımbənddə, həmin inzibati reqlamentə 1 və 2 nömrəli əlavələrin başlıqlarında "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.6.3. 1.3-cü bəndin 6,8,9 və 10-cu abzasları ləğv edilsin;

1.6.4. həmin bəndə aşağıdakı redaksiyada yeni abzaslar əlavə edilsin:

" - "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu;

- "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanunu (Əlavə 1, 6-cı maddə, Əlavə 2, 4-1 və 5-ci maddələr, Əlavə 3);

- "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının 2016-cı il 15 mart tarixli 176-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 20 aprel tarixli 866 nömrəli Fərmanı;

- "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə (2.0.6-cı, 3.0.14-cü, 3.0.36-cı və 3.0.38-ci yarımbəndlər).";

1.7. həmin Qərarla təsdiq edilmiş "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların dövriyyəsi üçün xüsusi icazə verilməsi məqsədi ilə müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 1.4-cü, 3.4-cü bəndlərində, 3.5.2-ci yarımbəndində, həmin inzibati reqlamentə 1 və 2 nömrəli əlavələrin başlıqlarında "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.8. həmin Qərarla təsdiq edilmiş "İxrac nəzarətinə düşən mallar (işlər, xidmətlər, əqli fəaliyyətin nəticələri) üzrə xüsusi icazə verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 1.4-cü, 3.4-cübəndlərində, 3.5.2-ci yarımbəndində, həmin inzibati reqlamentə 1 və 2 nömrəli əlavələrin başlıqlarında "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.9. həmin Qərarla təsdiq edilmiş "Təsisçisi və ya redaksiyasının daimi yeri Azərbaycan Respublikasının hüdudlarından kənarda olan xarici dövri mətbu nəşrlərin Azərbaycan Respublikasında yayılmasına razılıq verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 1.4-cü bəndində, 3.3.4-cü yarımbəndində, 3.4-cü bəndində, 3.5.2-ci yarımbəndində, həmin inzibati reqlamentə 1 və 2 nömrəli əlavələrin başlıqlarında "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.10. həmin Qərarla təsdiq edilmiş "Telefon çəkilişi, nömrənin dəyişdirilməsi və addan-ada keçirilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 1.4-cü bəndində (hər iki halda), 1.5-ci bəndində, 3.3.1-ci yarımbəndində, 3.4-cü bəndində, 3.5.2-ci yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.11. həmin Qərarla təsdiq edilmiş "Rabitə xidmət haqlarının internet vasitəsilə ödənilməsi üzrə inzibati reqlament"in 1.2-ci, 1.4-cü bəndlərində, 3.3.1-ci yarımbəndində, 3.4-cü bəndində, 3.4.1-ci, 3.5.2-ci yarımbəndlərində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.12. Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollegiyasının 2013-cü il 4 fevral tarixli 3 nömrəli Qərarı ilə təsdiq edilmiş "Poçt-maliyyə xidmətləri" Avtomatlaşdırılmış Korporativ İnformasiya Sisteminin çıxarışlarının uçotu Qaydaları"nın 1.1-ci bəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.13. "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən göstərilən elektron xidmətlər üzrə inzibati reqlamentlərin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollegiyasının 2013-cü il 3 oktyabr tarixli 08 nömrəli Qərarı üzrə:

1.13.1. Qərarın adında və 1-ci hissəsində "Rabitə və İnformasiya Texnologiyaları" sözləri "Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar" sözləri ilə əvəz edilsin;

1.13.2. həmin Qərarla təsdiq edilmiş "Nömrə resurslarının ayrılması üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament" 1.2-ci, 1.4-cü bəndlərində, 2.2.1-ci yarımbəndinin "Nömrə resurslarının ayrılması və istifadəsinə görə ödənişin aparılması üçün hesab" hissəsində, həmin inzibati reqlamentə 1 və 2 nömrəli əlavələrin başlığında "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.13.3. həmin Qərarla təsdiq edilmiş "İnternet xidmətlərinə qoşulma üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 1.2-ci bəndində və 3.5.2-ci yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin, 1.3-cü bəndin 3-cü abzasında "Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 10 avqust tarixli 111 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi haqqında Əsasnamə" (10.46-cı bənd)" sözləri "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə" (3.0.57-ci yarımbənd)" sözləri ilə əvəz edilsin;

1.13.4. həmin Qərarla təsdiq edilmiş "Telekommunikasiya vasitələrinə və qurğularına uyğunluq sertifikatının verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 1.4-cü bəndində, 3.5.2-ci yarımbəndində, həmin inzibati reqlamentə 1 və 2 nömrəli əlavələrin başlığında "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.13.5. həmin Qərarla təsdiq edilmiş "Radiorabitə vasitələrinin qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 1.4-cü bəndində, 2.6.1-ci və 3.5.2-ci yarımbəndlərində "Rabitə və Yüksək

Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.13.6. həmin Qərarla təsdiq edilmiş "Rabitə və kommunal xidmətlər üzrə borcların internet vasitəsilə öyrənilməsi üzrə inzibati reqlament"in 1.2-ci, 1.4-cü bəndlərində və 3.5.2-ci yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.13.7. həmin Qərarla təsdiq edilmiş "Şəhərlərarası və beynəlxalq danışıq qəbzləri (danışıqların açıqlamaları) barədə məlumatın verilməsi üzrə inzibati reqlament"in 1.4-cü bəndində və 3.5.2-ci yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.13.8. həmin Qərarla təsdiq edilmiş "Poçt göndərişlərinin izlənilməsi üzrə inzibati reqlament"in 1.2-ci, 1.4-cü bəndlərində və 3.5.2-ci yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.13.9. həmin Qərarla təsdiq edilmiş "Dövri mətbuata internet-abunə üzrə inzibati reqlament"in 1.4-cü bəndində və 3.5.2-ci yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.13.10. həmin Qərarla təsdiq edilmiş "Elektron imzanın verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"in 1.4-cü bəndində və 3.5.2-ci yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.14. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin kollegiyasının 2014-cü il 12 fevral tarixli 02 nömrəli Qərarı ilə təsdiq edilmiş "Telefon servis xidmətlərinə qoşulma üzrə inzibati reqlament"in 1.2-ci, 1.4-cü bəndlərində və 3.5.2-ci yarımbəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.15. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2016-cı il 6 fevral tarixli 0001 nömrəli Qərarı ilə təsdiq edilmiş "Poçt rabitəsi xidmətlərinin göstərilməsi Qaydaları"nın 1.12.2-ci yarımbəndində və 1.14-cü bəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin;

1.16. Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin 2016-cı il 16 aprel tarixli 0004 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əməliyyat-axtarış, kəşfiyyat və əks-kəşfiyyat tədbirlərinin keçirilməsi üçün rabitə şəbəkələrinin telekommunikasiya operatorları və provayderləri tərəfindən əlavə texniki vasitələrlə təchiz edilməsi Qaydaları"nın 2.3-cü bəndində "Rabitə və Yüksək Texnologiyalar" sözlərinin əvvəlinə "Nəqliyyat," sözü əlavə edilsin.

2. Hüquq şöbəsinə tapşırılsın ki, bu Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 (üç) gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə göndərilməsini təmin etsin.

3. Bu qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**nəqliyyat, rabitə və yüksək**
**texnologiyalar naziri** **Ramin Quluzadə**